# Kəlbəcər şəhərinin Baş planı təqdim edilib, İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoyulub







**İyunun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcər şəhərinin Baş planı ilə tanış olub, İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyub.**

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov dövlət başçısına Kəlbəcər şəhərinin Baş planı barədə məlumat verdi.

Bildirildi ki, Kəlbəcər şəhərinin Baş planının hazırlanması zamanı onun özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq edilə biləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

Ağdam, Cəbrayıl, Füzuli və Zəngilan rayonlarından sonra Kəlbəcər rayonunda da Zəfər və İşğal muzeyləri yaradılacaq.

Prezident İlham Əliyev Kəlbəcər Zəfər və İşğal muzeylərini layihələndirən "ACN" şirkətinin nümayəndələri ilə görüşdü.

Şirkətin icraçı direktoru **Laura KONTİ** dedi: Sizi görmək bizim üçün şərəfdir.

**Prezident İlham ƏLİYEV:** Gəldiyiniz üçün təşəkkür edirəm.

**Laura KONTİ:** Bizi dəvət etdiyiniz üçün minnətdarıq. Burada olmaqdan məmnunluq və şərəf hissi keçiririk. Təşəkkür edirəm. Xüsusilə bu möhtəşəm mühitdə, gözəl təbiətdə olmaq heyrətamizdir. Bura bizim olduğumuz ən gözəl yerlərdən biridir.

**Prezident İlham ƏLİYEV:** Bəli, bütün bu ərazilər belədir. Bütün bu ərazilər yaşıllıqdır.

**Laura KONTİ:** Təbiət heyrətamizdir. Təbiət bizim layihənin ilham mənbəyidir.

*Ardı 6-cı səh.*

# Kəlbəcər şəhərinin Baş planı təqdim edilib, İşğal və Zəfər muzeyləri kompleksinin təməli qoyulub




*Əvvəli 5-ci səh.*

Dövlət başçısı İşğal və Zəfər muzeylərinin layihəsini əks etdirən videoçarxa baxdı.

Prezident İlham Əliyevə Kəlbəcər şəhərində inşa olunacaq İşğal və Zəfər muzeyləri kompleksi barədə məlumat verildi. Qeyd olundu ki, hər iki muzey şəhərin mərkəzində salınacaq parkda tikiləcək. Bu, gözəl bir mühitdə yerləşən möhtəşəm layihə olacaq. Çünki bu ərazi landşaftına görə heyrətamiz gözəlliyə malikdir. Kompleksin bir hissəsi işğal tarixinə, digəri isə zəfərə həsr olunacaq. Bu layihə ilə həm də təbiətə ehtiram nümayiş olunacaq.

**"ACN" şirkətinin nümayəndəsi:** Ermənilər buranı işğal ediblər, lakin burada yaşamayıblar.

**Prezident İlham ƏLİYEV:** Yaşamayıblar və hər şeyi dağıdıblar.

**Şirkətin nümayəndəsi:** Hər şeyi bir-bir dağıdıblar.

**Prezident İlham ƏLİYEV:** Bunu etmək üçün heç bir səbəb yox idi. Biz onlara qarşı heç bir pis iş görməmişik. Biz etnik təmizləməyə məruz qalmışıq. Onlar bizim torpağımıza gəldilər, hər şeyi dağıtdılar və getmədilər. Kəlbəcəri tərk etmək üçün onlara vaxt verəndə nə etdilər? Evləri yandırmağa, ağacları kəsməyə başladılar və 32 su-elektrik stansiyasını dağıtdılar. Təsəvvürünüzə gətirirsinizmi?

**Şirkətin nümayəndəsi:** Mən su-elektrik stansiyalarının dağıdılmasını görmüşəm.

**Laura KONTİ:** Hər şey yandırılmışdır.

Sonra dövlət başçısı İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoydu.

Azərbaycan.- 2022.- 29 iyun.- S.5-6.